

*Əfsanə RƏVAN*

## OYAN, ÇAY DƏMLƏMİŞƏM

Bir soyuq qış gecəsi
Qar alanda hər yeri
Qəfil qapı açıla,
Sən girəsən içəri.

Don vurmuş əllərini
Sıxıb köksümə bərk-bərk
Sevincimdən ağlayam
Gecədən səhərədək.

Sonra sənə danışam
Sən yoxkən olanları.
Gedişindən yaranan
Təsəlli yalanları.

Eh, ya da ki, nə bilim,
Susub qalam eləcə.
Pozulmaya o sükut,
Bitməyə həmin gecə.

Qollarında məst olub
Deyəm sənsizləmişəm.
Bir də görəm səhərdi,
Səsləyəsən ki məni -
"Oyan, çay dəmləmişəm".

## ASIB MƏNİ SEVGİLİM

Yer qaçar ayağından,
Göy tökülər başına.
Tuş gələr ömrün elə,
Dəniz gözlü birinin
Küt balıq yaddaşına.

Dünyanın altı-üstü
Qarışdı bir-birinə.
Səni silib atardı
Kim olsaydı yerimə.

Gəl, səninçün darıxıb
Əlinə həsrət saçım.
Gəl, bitirim həsrəti,
Gəl, qanadım ol, uçum.

Təkliyə qorxa-qorxa,
Hürkə-hürkə dözürəm.
Bölünüb, parçalanıb,
Tikə-tikə gəzirəm.

Axı mən də adamam,
Gəlmirsənsə de, bilim.
Həyətdə bir ağac var,
Eşidərsən ki bir gün
Asıb məni, sevgilim...

## QAYIT

Nəyisə bəhanə et,
qayıt, bəlkə barışdıq.
Bir az havadan, sudan,
Bir az bizdən danışdıq.

Bəlkə görüşdüyümüz
ilk günün xatirinə.
Bir də başa qayıtdıq,
Bir də getdik filimə.

Bir də əl-ələ tutub,
Gəzdik şəhər boyunca.
Bizi yıxan həsrəti

Atıb ayaq altına,
Əzdik, əzdik doyunca.

Vallah, qınayan olmaz,
Keç inadından, qayıt.
Yağış damlasında gəl,
Quş qanadında qayıt.

Hələ birinci qışdı,
Hələ ki, yaza çox var.
Yazda isinir hamı,
Qışda qayıt da, nolar...

Nəyisə bəhanə et,
qayıt, bəlkə barışdıq.
Bir az havadan, sudan,
Bir az bizdən danışdıq.

## TƏƏSSÜF Kİ GEC OLAR

Bir gün də görərsən ki, unudulub getmisən.
Hərdən sınmamaq üçün bu da xoşuna gələr.
Öz-özünə deyərsən, təklik nə gözəl olur,
Hərdən də darıxarsan, ağlın başına gələr.

Dərd olmaz bir kimsənin yadına düşməməyin,
Bir bəhanə uydurub özünü aldadarsan.
Dərd o olar sevdiyin adam da dönük çıxa,
Ürəyinə köz düşər, alov-alov yanarsan.

Nə sən geri dönərsən, nə o sənə qayıdar,
Bütün yaşanmışların hədər olar, puç olar.
Bəlkə də nə zamansa "kaş ki"lər dilə gələr,
Onda da, hər şey üçün təəssüf ki, gec olar.

***Şəki***